9-10 may 2015-ci il tarixlərdə "Şahin" hərbi-idman oyununun respublika final yarışı keçirilib.

Final yarışına 9 zona üzrə keçirilən birinciliklərdən 19 komanda vəsiqə qazanmışdı. Yarış iştirakçıları may ayının 9-da saat 13.00-da Fəxri Xiyabanda Ümummilli Lider Heydər Əliyevin məzarını və Şəhidlər Xiyabanını ziyarət ediblər. Daha sonra komandalar Novxanı qəsəbəsində yerləşən "Akva Park" İstirahət Mərkəzində yerləşmişlər və olar üçün konsert proqramı təşkil edilmişdir. Mayın 10-da saat 9.00-da iştirakçı komandalar Cəmşid Naxçıvanski adına Hərbi Liseydə C.Naxçıvanskinin abidəsini ziyarət etdikdən sonra saat 10.00-da final yarışının açılış mərasimi başlanmışdır. Açılışda Hərbi Liseyin rəisi, general-mayor Mirzə Almasov, Gənclər və İdman Nazirinin müavin İntiqam Babayev, Təhsil Nazirinin müavini Firudin Qurbanov, Səfərbərlik və hərbi xidmətə çağırış üzrə Dövlət Xidməti rəisinin müavini general-mayor Novruzəli Orucov, Respublika Veteranlar Şurasının sədr müavini p-k. Cəlil Xəlilov çıxış edərək iştirakçı komandalara tövsiyyələrini vermiş və onlara uğurlar arzulamışdır. Açılışdan sonra komandalar "Sıra hazırlığı" da daxil olmaqla 8 mərhələ üzrə öz güclərini sınamışdır. Hakimlər heyətinin qərarına əsasən I yerə Xətai rayon komandası, II yerə Nizami rayon komandası, III yerə isə İsmayıllı rayon komandası layiq görülmüşdür. Qaliblər və ayrı-ayrı mərhələlərdə fərqlənən komandalar Gənclər və İdman Nazirliyi və digər qurumlar tərəfindən "Fəxri Fərman"la, hədiyyələrlə mükafatlandırılmışdır.

http://www.mys.gov.az